UOT: 33
JEL: D 11

MİRZƏBƏYOVA J.S.
AMEA İqtisadiyyat İnstitutu, böyük elmi işçi

İNSAN AMİLİ: İQTİSADİ FİKİRDƏ ÜMUMİ MEYL VƏ İSTİQAMƏTLƏR

Xülasə

Tədqiqatın məqsədi - iqtisadi fikirdə insan amilinə dair baxışlarda ümumi meyl və istiqamətlərin araşdırılmasıdır

Tədqiqatın metodologiyası - sistemli yanaşma, müqayisəli təhlil

Tədqiqatın nəticələri - iqtisadi fikirdə insan amilinə dair baxışlarda ümumi meyl və istiqamətlər müəyyənləşdirilmişdir

Açar sözlər: *insan amili, insan kapitalı, iqtisadi nəzəriyyə, iqtisadi fikir*.

GİRİŞ

İqtisad elmində insan amili anlayışının iqtisadi kateqoriya kimi formalaşması prosesi uzun tarixi inkişaf yolu keçmişdir. Hələ antik və orta əsrlərdə insanın məcmu iqtisadi potensialı, onun konkret keyfiyyət xüsusiyyətləri diqqəti cəlb etməyə başlamışdır. Artıq antik dövrdən etibarən istehsal fəaliyyətinin gedişi zamanı insan kütləsinin əməyindən daha yaxşı istifadə olunması forma və üsullarının axtarılmasına başlanılmışdı. Qədim cəmiyyətlərdə əməyin təşkili nümunəsi kimi Xeopsun (b.e.ə. 2575-2465-ci illər) piramidasının tikintisində yüz minlərlə çalışan insanlar və qurğular haqqında məlumatlara tarixin atası Heredotun "Tarix" əsərində rast gəlmək mümkündür.

Qədim Çində 2500 il bundan əvvəl işlədilən Jensay termini də xüsusi olaraq qeyd olunmalıdır və sözügedən termin ilk dəfə "Şiçzin" -də istifadə olunmuşdur. Qədim dövrlərdə jensay istedad, əməli saleh, kişi mənasında, yəni özünün dar mənasında işlədilirdi. Sun sülaləsinin hakimiyyəti dövründə isə daha geniş məzmunda işlədilməyə başlanıldı və məzmununa insanın əxlaqi və qeyri adi qabiliyyətləri də daxil edildi [3].

Qədim cəmiyyətlərdə insan və onun iqtisadi qabiliyyətləri ilə əlaqədar formalaşan fikirlərə Babilistan hökmdarı Xammurapinin də (1792-1750) qanunlarında da, bəşəriyyətin sonrakı inkişaf mərhələlərində yunan filosofları, xüsusən də Aristotelin əsərlərində rast gəlmək mümkündür.

Lakin qeyd etmək lazımdır ki, insanın iqtisadi mahiyyəti ilə əlaqədar ilk elmi-nəzəri mühakimələr öz əksini yeni dövrdə U.Petti, A.Smit, D.Rikardo, K.Marks, C.Mill, A.Marşall və b. əsərlərində tapmışdır, sonrakı dövrlərdə yeni məzmun və xüsusiyyətlər qazanaraq inkişaf etmişdir.

İnsanın iqtisadi mahiyyəti ilə əlaqədar ilk elmi nəzəri yanaşmalarda ümumi istiqamətlər

İnsanın iqtisadi məzmunu, cəmiyyətdəki iqtisadi rolu ilə baxışlar uzun inkişaf yolu keçsə də, ilk nəzəri elmi yanaşmalar yeni dövrə aiddir.

Yeni dövrdə insana, onun bacarıq və qabiliyyətlərinə aşağıdakı yanaşma modelləri diqqəti cəlb edir:

- A.Smit tərəfindən irəli sürülən "iqtisadi insan"- öz marağı üçün hərəkət edən, özünün iqtisadi maraqlarına nail olmaq üçün müəyyən sərişte və düşüncəsi, istehsaldakı rolundan və sinfi mənsubiyyətindən asılı olaraq fəallıq səviyyəsinə görə fərqlənir;
- C.S.Millin mühakimələrində kapitalist məqsədyönlü və yaradıcı fəaliyyət göstərən iqtisadi insan deyil əməyə ikrah hissi ilə yanaşan, maksimum xoşbəxtliyə, öz xeyrini təmin olunması vasitələrinin əldə olunmasına çalışan insan kimi təqdim olunur;
- Alman tarixi məktəbində (B.Hildebrant, K.Kins) iddia edirdilər ki, iqtisadi nəzəriyyədə insan- həmrəylik və ədalət hissləri ilə nəcibləşən eqoistdir.
- K.Marks insanın ictimai mahiyyətindən irəli gələn təsəvvürlər irəli sürürdü. İqtisadi münasibətlərin əsas fiquru kimi kapitalist və fəhləni, izafi dəyər vasitəsi ilə işçinin istismar olunması və s. mexanizmləri irəli sürmüşdü.
- Marjinalist nəzəriyyədə (S.Cevons, K.Menqer, L.Valras) rasional maksimallaşdırıcı,

istehlakın rasionallaşdırıcısı, nemətlərin pul ekvivalenti ilə mübadiləsində rasional ölçülərə nail olmağa çalışan fərd kimi təqdim edilirdi.

- A.Marşalın sintez nəzəriyyəsində iqtisad elminin cəmiyyətdə fərdlərin normal həyat fəaliyyətləri ilə məşğul ola bilmək imkanını müəyyənləşdirilməsi məsələsi diqqət çəkilir;
- Keyns hesab edirdi ki, natamam informasiyası olan, qeyri müəyyən vəziyyətdə iqtisadi subyekt situasiyanın rasionallaşdırılması üçün informasiyalaşdırılmış dövlətin yardımına can atır [6].

Qeyd etmək lazımdır ki, insan amili ilə bağlı təkcə nəzəriyyəçi-iqtisadçılar elmi araşdırmalar aparmırdılar, dövr keçdikcə insan amili, onun potensialı fənlərarası diskussiya predmetinə çevrilmişdi.

İnsan potensialı və insan amili fənlərarası yanaşmalar kontekstində

Sosioloqlar cəmiyyətdə insan amilini sosioloji cəhətdən spesifik araşdırılmasının əhəmiyyətini xüsusi olaraq qeyd edirlər. Sosioloji kontekstdə insan amilinin mahiyyəti tam olaraq öz izahını tapmamışdır. Bu fenomeni araşdıran sosioloqlar onun metodoloji prinsiplərlə əsaslandırılmış elementlərinin sayılması ilə kifayətlənirlər. Bu səbəbdən də insan amilini fənləarası tədqiqat mövzusuna çevrilməsi qənaətinə gəlmişlər.

Şərti olaraq insan amilini nəzərdən keçirən konsepsiyaları üç paradiqma qrupuna bölmək olar: *ümumi nəzəri, sosial-iqtisadi, sosioloji.*

Ümumi nəzəri istiqamətdə tədqiqatçılar insanın sosial mahiyyətinə, onun sosial tərəqqi amili kimi çıxış etməsinə imkan yardan potensial xüsusiyyətlərinin araşdırılmasını vacib sayaraq, insanın potensial imkanlarını ümumi sosial tərəqqi konsepsiyası çərçivəsində nəzərdən keçirərək, əsaslandırılmağa çalışırlar ki, sosial tərəqqi bir tərəfdən – sosial nəticəyə doğru hərəkətdir, digər tərəfdən, sosial tərəqqi əhalinin potensialının transformasiyalı modernləşdirilməsidir. Yəni, burada söhbət insan potensialının toplanmasının müasirləşdirilməsi və təkmilləşdirilməsindən, qabiliyyətlərin yenilənərək azad subyektlərin öz bacarıq hüdudlarını aşmasından, ləngidici əngəllərin aradan qaldırılmasından və s. gedir.

V.Zombart insan potensialının kompleks xüsusiyyətlərinin genişləndirilməsinin vacibliyi fikrini irəli sürmüşdür. O, təklif edirdi ki, insan potensialı əhalinin dayanıqlı və artıq kök salmış sosial vərdişləri və adətlərinin qiymətləndirilməsi vasitəsi ilə nəzərdən keçirilsin. Zombart xüsusi olaraq qeyd edirdi ki, insan amilinin nəzərdən keçirilən forması sosial və iqtisadi transformasiyalar prosesində tarixən dəyişilir [2].

Q. Zimmel insan amilinin sosial və iqtisadi təzahürlərinin reallaşdırılmasının qarşılıqlı əlaqələrini konkretləşdirir və qeyd edir ki, insanın qabiliyyətlərinin ümumi nəzəri araşdırılmasını ayrı-ayrı müstəqil sosial-iqtisadi müddəalarla tamamlamaq lazımdır. Təsərrüfatçılığın bazar iqtisadiyyatı formalarında insan potensialı həm sosial, həm də iqtisadi kontekstlərdə təzahür edir. İqtisadi baxımdan məhz pullar istənilən növ insan potensialının inkişaf mənbəyi kimi çıxış edir. Pulların əldə olunması eyni zamanda son məqsəd kimi kapitalist cəmiyyətinin mütləq məqsədi olaraq diqqəti cəlb edir [8].

20-ci illərdə sosioloq Pitirim Sorokin yazırdı ki, istənilən cəmiyyətin taleyi hər şeydən öncə onun üzvlərindən asılıdır. Xalqların çiçəklənməsi və məhvi təzahürlərinin diqqətlə öyrənilməsi əsasında məlum olmuşdur ki, əsas səbəblərdən biri əhalinin keyfiyyətindəki dəyişikliklər olmuşdur.

Beləliklə ümumi nəzəri yanaşma çərçivəsində müasir sosioloji nəzəriyyənin əsas nəzəri müddəaları formalaşmışdır. Nəzəriyyəçilər fənlərarası səviyyədə insan amilinin əhəmiyyətli xüsusiyyətlərini müəyyənləşdirərək onu insanın iş və əmək qabiliyyəti ilə eyniləşdirirlər. İnsan potensialının formalaşdırılması insanın mahiyyətinin formalaşdırılması ilə, sosial potensialın yüksəldilməsi ilə (sosial qabiliyyətlər) eyniləşdirilir. Tədqiqatçılar insan potensialının iki əsas təzahür formaları üzərində dayanırlar: 1) insan məcmusunun sağlamlığı və uzun ömürlülüyü (sosiumun fiziki bədəni və qabiliyyətlərinin inkişafı); 2) insan məcmusunun mənəviyyatı, onun tələbatlarının inkişaf etməsi zənginliyi (insanın intellektual fəaliyyətlər üçün şüur və potensial qabiliyyətlərinin inkişafı.

Qeyd etmək lazımdır ki, insan amili hər nə qədər fənlərarası diskussiya predmeti kimi çıxış etsə də burada irəli sürülən fikir və ideyalarda,

nəzəri-konseptual yanaşmalarda aparıcı rol iqtisadçılara məxsusdur və bu kontekstdə XX-XXI əsrlərdə formalaşan konsepsiyalar diqqəti cəlb edir.

İnsan amili ilə bağlı müasir konsepsiyalar (insan kapitalı və digər konsepsiyalar)

İnsan amili ilə bağlı yanaşmalar içərisində insan kapitalı nəzəriyyəsi xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, insan kapitalı anlayışı (human capital, HC) və onun nəzəriyyəsi XX əsrin ikinci yarısında formalaşmağa başlamışdır. Bu isə öz növbəsində innovasiya iqtisadiyyatının, postindustrial və informasiya cəmiyyətinin təşəkkül tapdığı bir dövrə təsadüf edir.

İqtisadi ədəbiyyatlarda insan kapitalı anlayışının dar, geniş və əhatəli məzmunlarına rast gəlmək mümkündür. Qeyd olunduğu kimi sosial iqtisadi kateqoriya kimi insan kapitalının məzmunu tədricən formalaşmışdır**.** Birinci mərhələdə insan kapitalının məzmununa xüsusi təhsilə çəkilən investisiyalar (dar) aid edilmişdir. İkinci mərhələdə insan kapitalının məzmununa təhsil, tərbiyə, elm, sağlamlıq, informasiya xidməti, mədəniyyət və incəsənətə çəkilən xərclər daxil edildi. Üçüncü mərhələdə insanların həyatlarının təhlükəsizliyinin təmin olunması üçün çəkilən xərclər, institusional xidmətin səmərəliliyinin yüksəldilməsi, həyat səviyyəsinin yüksəldilməsi üçün çəkilən xərclər və hətta xarici ölkələrdən yuxarıda qeyd edilən məqsədlər üçün cəlb edilən kapital axını da daxil edildi. Müvafiq olaraq insan kapitalı nəzəriyyəsinin formalaşmasında xüsusi xidmətləri olan mütəfəkkirlərin də adlarının çəkilməsinə ehtiyac vardır.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, müəyyən dövr ərzində real inkişaf və artım proseslərinin təhlili əsasında insan kapitalı müasir iqtisadiyyatın və cəmiyyətin inkişafının əsas sosial və iqtisadi faktoru kimi diqqəti cəlb etməyə başladı və bu kontekstdə "insan kapitalı" iqtisadi kateqoriya kimi tədricən formalaşmağa başlamışdır və başlanğıc mərhələlərdə insanın bilik, bacarıq və əmək qabiliyyətləri kimi təqdim olunurdu. Uzun illər ərzində insan kapitalı sosial inkişaf faktoru, hətta iqtisadi nəzəriyyədə xərc tələb edən (məsrəfli) faktor kimi də nəzərdən keçirilirdi.

XX əsrin ikinci yarısından etibarən insan kapitalına münasibət dəyişdi. Edvard Denison (Robert Solou, Con Kendrik və b. xidmətləri də qeyd olunmalıdır) iqtisadi artım faktorlarının təsnifatını verdi. Onun tərəfindən təsnifatda təqdim edilən 23 faktordan 4-ü əməyə, 4-ü kapitala, 1-i torpağa, 14-ü ETT-nin töhfəsi kimi göstərilirdi. Denison əsas üstünlüyü iş qüvvəsinin keyfiyyətinə verirdi və o, öz əsərlərində yazırdı ki, əmək məhsuldarlığı təhsildən əhəmiyyətli dərəcədə asılıdır.

İnsan kapitalı nəzəriyyəsinin inkişafında xüsusi xidmətləri olmuş alimlər qismində Nobel mükafatı laureatları T.Şults (1979) və Q.Bekkerin (1992) adlarını xüsusi olaraq qeyd etmək lazımdır. Şults insan kapitalını məhsuldar, istehsal faktoru kimi qiymətləndirənlərdən olmuş və industrial, postindustrial, innovasiya-informasiya cəmiyyətinin aparıcı qüvvəsi kimi təqdim etmişdir. Şults insana sərf edilən investisiyaların əsas nəticəsi kimi insanlarda cəmiyyət üçün səmərəli və yaradıcı qabiliyyətlərin toplanılması, onların sağlamlığı və kreativliyinin dəstəklənilməsini hesab etmişdir. O, həmçinin hesab edirdi ki, insan kapitalı toplanılır, təkrar istehsal edilir, modifikasiya olunur, cəmiyyətdə istehsal edilən məcmu məhsulun bu dövrdə bir hissəsi insan kapitalının toplanılmasına sərf edilir.

Q.Bekker insan kapitalı nəzəriyyəsi çərçivəsində insan kapitalına sərf edilən məsrəflərin səmərəliliyini ilk dəfə qiymətləndirmişdir.

Eyni zamanda insan kapitalı nəzəriyyəsinin inkişafında qərb mütəxəssislərindən E.Denison, R.Solou, C.Kendrik, S.Fabrikant, İ.Fişer, R.Kukasın, rus iqtisadçılarından V.Kloçkov, A.Yuryev, L.Simkina və b. adlarını qeyd etmək olar.

Müasir dövrdə insan kapitalı anlayışının məzmununu insanın və cəmiyyətin çoxsaylı tələbatlarının ödənilməsi üçün istifadə edilən bilik, bacarıq vərdiş və qabiliyyətlərin məcmusu kimi təqdim edən konsepsiya formalaşmışdır. Qeyd etmək lazımdır ki, insan kapitalı konsepsiyasının inkişafının əsasında institutsional, neoklassik, neokeynsçi və digər iqtisadi məktəblərin nümayəndələrin nəzəri və praktiki əhəmiyyətli müddəaları dayanır və konsepsiyanın formalaşmasında T.Şults, Q.Bekker, S.Kuznets,

E.Denison, R.Slou, C.Kendrik, S.Fabrikant, İ.Fişer, R.Lukas və Dünya Bankının bir sıra digər ekspertləri çox böyük rol oynamışlar [7; 9; 10].

Termini ilk dəfə Teodor Şults tərəfindən istifadə edilmişdir. İnsan kapitalı anlayışını elmi dövriyyəyə daxil edən T.Şults, eyni zamanda insan potensialının inkişaf etdirilərək, güclü amil rolunu oynamaq üçün investisiya qoyuluşlarına xüsusi əhəmiyyət verirdi. Çünki insan kapitalının inkişaf etdirilməsi ilə ölkədə yoxsulluğun aradan qaldırılması arasında ciddi bir əlaqənin olduğu qeyd edilirdi, həmçinin formal təhsilə çəkilən xərclərin hesablanması üsuluna əsasən insan kapitalının dəyərinin qiymətləndirilməsinə cəhd etmişdir [11].

Q.Bekker insan kapitalı anlayışını mikrosəviyyəyə tətbiq etməyə başladı. Bekker müəssisələrin insan kapitalı anlayışının məzmununa müəssisələrin işçi heyətinin bilik, bacarıq, vərdiş və qabiliyyətlərinin məcmusunu daxil etdi, işçilərin təhsil və tədrisinə çəkilən xərcləri işçilərə yatırılan investisiyalar kimi təqdim etmişdir.

Göründüyü kimi, insan kapitalı nəzəriyyəsinin formalaşmasının və müasir nəzəriyyə şəklini almasının aktiv mərhələsi XX əsrin 60-ci illərindən başlanır və T.Şults, Q.Bekker, sonrakı illərdə C.Kendrik insan kapitalı nəzəriyyəsinin əsas müddəalarının müəlliflərididirlər və bunlar aşağıdakılardır:

- insan kapitalı ilə maddi kapital arasında heç bir fərq yoxdur, çünki hər ikisi gəlir gətirir;
- insana investisiya yatırımları əmək haqlarının strukturunu dəyişdirir. Onun əsas hissəsini insan kapitalından əldə edilən gəlir təşkil edir;
- insan kapitalına investisiya yatırımları maddi kapitala investisiya qoyuluşlarını qabaqlayır və bu səbəbdən də maddi kapital mülkiyyəti ikinci dərəcəli əhəmiyyət kəsb edir;
- cəmiyyət insana daha çox vəsait sərf etməklə artıma nail olmaqla yanaşı, vəsaitlərin bərabər bölgüsünün daha yaxşı təşkil olunmasına nail ola bilər.

Yuxarıdakı nəticələrdən də göründüyü kimi, bir daha qeyd etmək yerinə düşərdi ki, artıq XX əsrin 60-cı illərindən etibarən insan amili ilə bağlı iqtisadi təhlilin yeni müstəqil bölməsi, insan kapitalı nəzəriyyəsi formalaşmağa başlamış və sözü gedən nəzəriyyənin müddəalarında iki əsas istinad mərkəzi çox aydın görünür:

- işçi istisna olmaqla məhsuldar qüvvələrin bütün elementlərini özündə birləşdirən – Fiziki kapital;
- insanın fitri bacarıq və istedadını, fiziki qüvvəsini sağlamlığını, həmçinin bütün həyatı ərzində əldə etdiyi bilik, təcrübə və vərdişlərini birləşdirən - insan kapitalı məzmununu əhatə edən iqtisadi anlayışlardır.

Artıq müasir iqtisadi leksikonda insan kapitalının geniş və dar mənada məzmunu ilə əlaqədar müxtəlif fikirlər də səslənməkdədir və həmin fikirlərin ümumiləşdirilməsi əsasında qeyd etmək olar ki, insan kapitalı geniş mənada – cəmiyyətin, ailənin intensiv və məhsuldar iqtisadi inkişafını təmin edən güclü faktoru hesab olunur, tərkibinə əmək resurslarının müəyyən hissəsi (savadlı), biliklər, intellektual və idarəetmə əməyi vasitələri, əmək fəaliyyəti və yaşayış mühiti və s. daxil edilir. Çox qısa, dar məzmunda isə insan kapitalını –intellekt, sağlamlıq, bilik, keyfiyyətli və məhsuldar əmək, keyfiyyətli həyat səviyyəsi göstəricilərinin məcmusu kimi də təqdim edilir.

Qeyd etmək lazımdır ki, insan kapitalı nəzəriyyəsinin ardıcıllarının əldə etdikləri elmi nəticələri ABŞ və Avropa ölkələrinin dövlət siyasətinə ciddi təsir göstərir. Müvafiq olaraq dövlət proqramları çərçivəsində kadr hazırlığı, yoxsulluq və sosial bərabərsizlik təzahürlərinə qarşı daha səmərəli mübarizə üsulları işlənilib hazırlanaraq həyata keçirilməkdədir. Lakin bütün bunlarla yanaşı insan kapitalı nəzəriyyəsinin müddəalarının kifayət qədər sanballı opponentləri də vardır. Bu baxımdan, insan kapitalının bütün dünya səviyyəsində qəbul olunması və nüfuz qazanmasına baxmayaraq nəzəriyyəni tənqid edən opponent çıxışlarına da diqqət yetirilməsi yerinə düşərdi.

Məsələn A.Berq, C.Stiqlis insan kapitalı nəzəriyyəsinin əsas müddəalarını tənqid edərək hesab edirlər ki, əmək məhsuldarlığının yüksək səviyyəsi təhsilin səviyyəsindən daha çox insanın fitri istedadı ilə əlaqədardır.

İnsan amili ilə bağlı müasir konsepsiyalarda daha bir istiqamət kimi **insan potensialının inkişafı hərəkatı-**(*Human Potential Move-*

ment) – qeyd olunmalıdır - ABŞ-da XX əsrin 40-cı illərində yaranmış ictimai hərəkatdır. Hərəkatın ideologiyasının əsasını fərdi inkişaf və ekstraordinar qabiliyyətlərin inkişaf etdirilməsi ideyası təşkil edir.

Heç də təsadüfi deyildir ki, 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsi müasir dövrdə inkişafın əsas məqsədinin məhz insan rifahı olmasını təsdiq etdi. Sonrakı illərdə BMT-nin bir sıra forumları və konfransları insan inkişafının müxtəlif aspektlərinə həsr olundu və insanlara yönəlmiş inkişaf prinsipi dönə-dönə vurğulandı.

Humanist psixologiyanın ciddi təsiri altında XX əsrin 60-70-ci illərində daha da populyarlaşdı. 1962-ci ildə Kaliforniyada Esalen İnstitutu yaradıldı və həmin institutda humanist alternativ təhsil mərkəzi fəaliyyət göstərməyə başladı. İnsan potensialı uğrunda hərəkat ABŞ-da Nyu-Eyc hərəkatına təkan verdi. Nəticədə çox saylı psixoterapevtik treninqlər yarandı. 70-ci illərin sonlarında hərəkat zəiflədi.

XX əsrin sonları və XXI əsrin əvvəllərində insan amili iqtisadi fikirdə

İnkişafın yalnız pul vahidləri ilə ölçülməsinə alternativ kimi 1970-ci illərdə Morris Devid Morrisin təklif etdiyi həyatın fiziki keyfiyyəti indeksi körpə ölümü səviyyəsi, böyüklər arasında savadlılıq səviyyəsi və gözlənilən ömür uzunluğu göstəricilərinə əsaslanırdı.

Bu yanaşmanın əsas prinsipi ondan ibarət idi ki, inkişafın məqsədi istehsalın genişləndirilməsi deyil, insanları seçim edə bilmək, daha uzun ömürlü olmaq, xəstəliklərdən qoruna bilmək, bəşəriyyətin əldə etdiyi biliklərdən istifadə etmək imkanlarının verilməsidir. Amartya Sen qeyd edir ki, son nəticədə inkişaf azadlıq məsələsidir. Hind iqtisadçısı A.Sen öz araşdırmalarında insan potensialı dedikdə genişləndirilmiş kompitensiyalar vasitəsi ilə inkişaf prosesini başa düşürdü. O, hesab edirdi ki, hər bir şəxsdə bu və ya digər məqsədin, həyat tərzinin içərisində ən münasib olanı seçmək hüququ olmalıdır [4].

P.Sorokin dünya müharibəsi və inqilab zamanı bəşəriyyətin itkilərini hesablayaraq insan potensialının keyfiyyəti ideyasını formalaşdırmış, xalqın sərvətinin əsas keyfiyyəti kimi xarakterizə etmişdir. O, iddia edirdi ki, istənilən cəmiyyətin taleyi cəmiyyət üzvlərinin xüsusiyyətindən asılıdır [5].

XX əsrin 80-ci illərində iqtisadi fikirdə problemə yeni yanaşmanın formalaşması diqqəti cəlb edir. 80-ci illərin ikinci yarısında artıq çox aşkar dərk olunmağa başlanıldı ki, elmin, təhsilin, səhiyyənin və mədəniyyətin inkişafı - insan inkişafını, onun fiziki və mənəvi sağlamlığını, yaradıcılıq qabiliyyətlərinin, bilik və peşəkarlığının inkişafını, bütünlükdə ictimai tərəqqini təmin edən əsas amillərdir. Bu dövrdə insan potensialının inkişafının intellektual təməli qoyuldu. 80-ci illərin sonlarına doğru insan və insan potensialının inkişafı ideyası bir çox mütərəqqi alimlərin əsərlərində yer almağa başladı (Mahbub ul-Haq, Kleyn Qriffin, Con Nayt). Müvafiq olaraq sonrakı illərdə *insan inkişafı nəzəriyyəsi* inkişaf etməyə başladı.

XX əsrin 90-cı illərində insan potensialının daha geniş konseptual məzmununun şərh olunmasına başlanıldı. Bu yanaşmada insanın inkişaf imkanları və heç də hər zaman reallaşdırılmayan imkanlar kimi təqdim olunmağa başlanıldı. Burada söhbət təkcə hansısa keyfiyyətlər məcmusundan deyil, insanın inkişaf imkanlarından gedir. Xüsusiləqeyd edilməsi yerinə düşərdi ki, hər il insan potensialının ölkələr üzrə inkişaf göstəricilərini özündə əks etdirən hesabatlar nəşr etdirilir. Hesabatlarda ölkələr üzrə insan potensialının müqayisəli inteqral inkişaf indeksi öz əksini tapmışdır. Həmin indeks 1990-cı ildə Məhbub əl-Haqqın rəhbərliyi ilə iqtisadçı qrupu tərəfindən hazırlanmışdır.

İnsan İnkişafı İndeksi (İİİ)- əhalinin rifahını ÜDM-dən daha geniş şəkildə özündə ehtiva edir və insan inkişafının üç ölçüsünü özündə birləşdirir:

- uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır);
- təhsil səviyyəsi (böyüklər arasında savadlılıq, həmçinin ibtidai, orta və ali məktəblərdə təhsil alanların say nisbəti əsasında hesablanır);
- layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti/AQP, gəlir əsasında hesablanır).

Bundan sonra hər bir ölkədə insan inkişafı strategiyası, onun məqsəd və vəzifələri, proqramları işlənilib hazırlandı. Qeyd etmək lazım-

dır ki, insan inkişafına həsr edilmiş ilk milli məruzələr Banqladeşdə, Kamerunda, Pakistanda, Filippində 1992-1995-ci illərdə nəşr olunmağa başlanıldı. İllik hesabatlar hər il Şərqi Avropa və postsovet ölkələrində də nəşr olunur. 1998-ci ildə artıq 100 ölkədə milli məruzələr hazırlanmışdı. Eyni zamanda Hindistanın, Boliviyanın və Bolqarıstanın regionları üçün də submilli məruzələr hazırlandı. İndiki dövrdə insan inkişafı üzrə 170 ölkədə milli məruzələr hazırlanır.

Eyni zamanda yuxarıda qeyd edilən üç istiqamətin hər biri üzrə indekslər hesablanır. Hesablamalar 0-dan 1-ə qədər standartlaşdırılır, orta həndəsi ədəd insan inkişafı indeksinin 0-1 diapazonunda göstəricisi sayılır. Bu göstərici əsasında dövlətlər siyahıda sıralanır. Yekun reytinqdə İnsan İnkişafı İndeksinə görə dövlətlər dörd kateqoriyaya bölünürlər:

1. Çox yüksək İnsan İnkişafı İndeksi olan ölkələr;
2. Yüksək İnsan İnkişafı İndeksi olan ölkələr;
3. Orta İnsan İnkişafı İndeksi olan ölkələr;
4. Aşağı İnsan İnkişafı İndeksi olan ölkələr;

İnsan İnkişafı İndeksinin ölçülməsi üsulları, eyni zamanda insan inkişafı ilə bağlı irəli sürülən əlavə indekslər 1990-ci ildən başlayaraq bu günə qədər ciddi dəyişikliklərə məruz qalmış və öz inkişafında xeyli məsafə qət etmişdir. Nümunə üçün göstərmək olar ki, 2010-cu ilə qədər İnsan İnkişafı İndeksi (1) ömür uzunluğu göstəricisi, (2) yaşlı əhali arasında savadlılıq səviyyəsi (üçdə-iki) və ümumi qeydiyyat əmsalına əsasən (üçdə bir hissəsi) ibarət olan təhsil indeksi, (3) alıcılıq qabiliyyəti pariteti ilə adambaşına düşən ümumi daxili məhsulun natural loqarifması ilə hesablanırdı. Lakın 2010-cu ildən metodologiyada dəyişikliklər edildi. Bir daha qeyd etmək yerinə düşərdi ki, burada söhbət aşağıdakı indekslərin hesablanmasından gedir : 1. Gözlənilən ömür uzunluğu indeksi (Life Expectancy Index, LEI) müəyyən dərəcədə ölkədəki səhiyyə sisteminin və sosial müdafiənin vəziyyətini əks etdirir;

2. Təhsil indeksi (Education Index, EI) ölkədəki təhsil sisteminin əksi kimi təhsil almaq imkanlarını səciyyələndirir;

3.Ümumi milli gəlir indeksi (Gross National Income Index, GNII) və ya həyat səviyyəsi indeksi adambaşına düşən ümumi milli gəlir (ÜMG) (milli valyutaların alıcılıq qabiliyyətinin paritetinin [AQP] ABŞ dolları ilə) əsasında ölkə vətəndaşlarının gəlir səviyyəsini əks etdirir.

Deyilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, İnsan İnkişafı İndeksinin ətrafında, hesablama metodologiyaları ilə əlaqədar tənqidi fikirlər səslənmişdi. Tənqidi yanaşmlarada hesablamaların ancaq üç parametrə əsaslanması qeyri məqbul hesab olunurdu. İndeksədə öz əksini tapmayan məsələlər qismində aşağıdakılar xüsusi ilə qeyd olunurdu*:* Mənəvi-emosional rifah; Sosial münasibətlər; Siyasi azadlıqlar; Siyasi və iqtisadi stabillik; mədəni inkişaf və s.

Lakin tənqidi yanaşmalara, statistik-metodoloji çərçivə kimi insan inkişafı indeksinin müəyyən məhdudiyyətlərinə baxmayaraq yenə də qeyd etmək yerinə düşərdi ki, İnsan İnkişafı İndeksi ölkənin iqtisadi inkişafına nail olmaq üçün yalnız iqtisadi artımın deyil, eyni zamanda əhalinin və onların imkanlarının da başlıca meyar olduğunu göstərmək məqsədilə tərtib edilmişdir.

Təşkilati çərçivənin yaradılması - İnsan potensialı ilə əlaqədar yeni yanaşma özünün ideya gücünə görə çox keçmir və Birləşmiş Millətlər Təşkilatı çərçivəsində rəsmiləşdirildi. 1990-ci ildən başlayaraq hər il buraxılan "İnsan potensialının inkişafı" məruzəsi insan potensialının inkişafı anlayışının məzmununu bir qədərdə zənginləşdirdi. Qeyd etmək lazımdır ki, Məhbub əl Haqq ilə çalışan məsləhətçilər qrupuna iqtisadi inkişaf üzrə mütəxəssislər qrupu daxil olmağa başladı. İnsan potensialı ilə əlaqədar hər bir məruzə dünyada bu sahədə mövcud vəziyyəti özündə əks etdirir. Onun müəllifləri müntəzəm olaraq insan potensialının inkişafındakı təmayülləri; təzahürlərin kəmiyyət ölçüsünün müəyyənləşdirilməsi üçün xeyli işlər görür; hər bir məruzənin sonunda müfəssəl statistik əlavələr vardır. Deyilənlərlə yanaşı hər bir cilddə beynəlxalq əhəmiyyətli, ciddi müzakirə və diskussiyalarla müşayiət edilən, konkret problem nəzərdən keçirilir. "İnsan potensialının inkişafı məruzəsinin" birinci buraxılışında (1990) insan potensialının inkişafının ölçülməsinə həsr olunmuşdu. Burada əsas ideya qismində qeyd

olunmalıdır ki, iqtisadi artım ilə insanların imkanlarının avtomatik olaraq artması arasında heç bir əlaqənin olmadığı bildirilirdi. Növbəti ildə tender amilinin nəzərə alınması ilə İnsan Potensialının İnkişafı İndeksi dövriyyəyə daxil edildi, insan azadlığı anlayışı ətrafında ciddi mübahisələr oldu. İnsan azadlığı indeksi nəşr olundu və burada qeyd olunurdu ki, insan azadlığı ilə insan potensialının arasında sərt korrelyasiya mövcuddur. Bəzi inkişaf etmiş dövlətlər insan azadlığı indeksinin nəşr olunmasına qarşı çıxdılar və hesabatların dərc olunmasının dayandırılması təhlükəsi yarandı. Lakin 1992-ci ildə üçüncü buraxılışdan sonra inkişaf etməkdə olan dövlətlərin mövqeyində bir qədər yumşalmalar oldu. Burada əsasən Şimal-Cənub ölkələrinin münasibətlərinə yer verilmişdi, başlıca məqsəd ölkələrin inkişaf səviyyəsindəki bərabərsizliyin aradan qaldırılması üçün əməkdaşlıqların genişləndirilməsi idi. 1993-cü ildə nəşr edilən Məruzədə bazar mexanizmlərinə daha çox arxalanmaq, institusional və ədalət məsələlərinə daha az diqqət yetirilməsi tənqid olunurdu. 1994-cü ildə nəşr edilən məruzədə Kopenhagendə müzakirə edilən məsələlərə, yoxsulluğun masştabının azaldılması, iş yerlərinin yaradılması, sosial inteqrasiya məsələlərinə həsr olunmuşdu. Məruzədən yeni mövzular meydana çıxdı: insanın təhlükəsizliyinin təmin olunması, soyuq müharibənin bitməsi ilə sülhün yaratdığı maliyyə imkanlarından sosial proqramların reallaşdırılması üçün yararlanmaq imkanları nəzərdən keçirilirdi.

1995-ci il məruzəsi Pekin sülh konfransı ərəfəsində buraxılmışdı, qadınların inkişafı, hüquq bərabərsizliyinin aradan qaldırılması məsələlərinə həsr olunmuşdu.

1996-ci il məruzəsinin əsas mövzusu iqtisadi artım və insan potensialının inkişafı nisbətləri, 1997-ci ildə yoxsulluğun insanlara seçim hüququnun verilməsindən imtina halları, 1998-ci ildə insan potensialının inkişafı ilə istehlak strukturunun nisbəti,1999-cu ildə qloballaşmadan insan inkişafı üçün istifadə edilməsi məsələlərinə həsr olunmuşdu. Aparılmış analitik müşahidələr zamanı əldə edilmiş nəticələr, informasiya həddindən artıq zəngin və geniş məzmunlu idi. Bütün bunlar isə həmin materialların xüsusi nəşr orqanında dərc olunması zərurətini yaratdı. Müvafiq olaraq 2000-ci ildən "İnsan inkişafı jurnalı"-nın (Journal of Human Development) nəşr olunması ideyası meydana çıxdı. Sen və Şults tərəfindən irəli sürülən elmi fikirlər, nəzəri mühakimələrin artıq praktiki reallaşdırılması diqqəti gerçəkləşdirilirdi.

Yuxarıda deyilənlərin ümumiləşdirilməsi əsasında insan amilinin iqtisadi proseslərə təsirinin müasir nəzəri müşahidələr kontekstində ümumi mənzərəsini təqdim etmək olar.

Göründüyü kimi, insan amilinin cəmiyyətdə baş verən proseslərə və xüsusən də iqtisadi proseslərə təsiri insana məxsus xüsusiyyətlərinin sosial və iqtisadi aspektləri ilə, həmçinin mühüm xüsusiyyətlərinin təzahür etdiyi bütün fəaliyyət növləri ilə əlaqədardır.

Ümumiyyətlə insan amili və yaxud insan faktoru termini iqtisadi ədəbiyyatlara "insan faktorları mühəndisliyi" (human factors engineering) ABŞ-da işlədilmiş ifadənin hərfi tərcüməsi nəticəsində daxil olmuşdur. Bu ifadənin ilkin məzmununda ağırlıq mərkəzi şəxsiyyətin gerçəkliyin dəyişilməsində fəal rolu üzərinə düşməsi mühüm yer tuturdu və insan yaradıcı, gerçəkliyi dəyişdirə bilən qüvvə kimi nəzərdən keçirilirdi [1, c. 76, №142, 2009].

Göründüyü kimi, iqtisadi nəzəriyyənin müddəalarına əsaslanaraq qeyd etmək lazımdır ki, burada söhbət bir tərəfdən ictimai istehsalın inkişaf faktorundan, digər tərəfdən insanlar arasında münasibətlər məcmusundan gedir. İnsan amilinin iqtisadi proseslərə təsirinin sosial və iqtisadi aspektlərinə çox saylı təzahür formaları-əmək, əmək məhsuldarlığı, ictimai əməyin təşkili üsulları, əməyin nəticələrinin mənimsənilməsi formaları və s. daxildir.

Neoklassik iqtisadi nəzəriyyədə uzun illər ərzində istehsalda insan faktoru anlayışı "iqtisadi insanla" eyniləşdirilərək onun iki növü barəsində mühakimələr irəli sürülürdü. Birincisi maddi nemətlər istehsalı və xidmət sferasında öz əməyini tətbiq edən, fiziki əməklə məşğul olan işçi başa düşülürdü. İkincisi, bütün cəhd və səyləri bazarda azad rəqabət qanunlarına tabe olan iqtisadi və mülkiyyət münasibətləri subyekti başa düşülürdü.

XX əsrin 70-ci illərindən etibarən yeni "iqtisadi insan" konsepsiyası formalaşmağa başladı.

Burada söhbət insan kapitalı nəzəriyyəsindən gedir.

İnsan amilinin iqtisadi ədəbiyyatlarda fərqli yanaşma və nəzəri dəyərləndirmələr kontekstində qeyd etmək lazımdır ki, insan amili-sosial, demoqrafik, iqtisadi və siyasi strukturu olan, cəmiyyətin inkişafına xidmət edən, bir birinə qarşılıqlı təsir göstərən elementləri olan işçi kollektivi, ictimai həyatın kollektiv subyekti kimi də nəzərdən keçirilə bilər. Bu xüsusda "əmək resursları" və "insan faktoru" anlayışlarının məzmununun bir birindən fərqləndirilməsi yerinə düşərdi. Regiounun, sahə və müəssisələrin əmək resursları dedikdə iş qüvvəsinin kəmiyyəti, ərazi, demoqrafik, sahə, peşə və ixtisas strukturu başa düşülür. İstehsalda insan amili anlayışının məzmununa əməyə münasibət, təşəbbüskarlıq, maraq və tələbatlar, dəyərlər, müxtəlif vəziyyətlərdə davranış üsulları və s. daxildir. Eyni zamanda qeyd etmək lazımdır ki, insan amili inkişaf prosesinə təsir edən mühüm amildir. Göründüyü kimi, insan amili –iqtisadi-siyasi məzmun daşıyan anlayışdır və iqtisadiyyatda subyektiv faktorun rolu insanın sosial-iqtisadi münasibətlərdə, xüsusən də istehsal münasibətləri və proseslərində rolu bütün dövrlərdə həm nəzəri, həm də praktiki baxımdan müşahidələr obyektinə çevrilmişdir. Çox saylı fikir və dəyərləndirmələrdə və xüsusən də müasir yanaşmalarda dörd mühüm istiqamət diqqəti cəlb edir. Birinci istiqamətin ardıcılları problemə siyasi iqtisad və yaxud iqtisadi nəzəriyyənin meyarlarına əsasən yanaşaraq iş qüvvəsi və onun xüsusiyyətlərini təhlil və dəyərləndirmələr obyekti kimi seçmişlər, bütün dəyərləndirmələr iş qüvvəsi kateqoriyasının üzərində qurularaq, əmək qabiliyyəti, insana məxsus fiziki və intellektual qabiliyyətlər, bir sözlə insanın maddi və mənəvi nemətlər istehsalı üçün istifadə etdiyi bacarıqlara xüsusi diqqət yetirilir. İkinci istiqamət sosioloji və psixoloji yanaşma kimi diqqəti cəlb edir, bu istiqamətin ardıcılları insanın cəmiyyətdə, müxtəlif sosial sferalarda, xüsusən də əmək fəaliyyəti prosesində davranış aktlarının sosial-psixoloji əsaslarını nəzərdən keçirirlər.

Cədvəl №1

İnsan amilinə antropoloji mövqedən yanaşmalar

İnsan amilinə metodoloji yanaşmanın mahiyyəti	Yaranması və fəal elmi dövriyyədəki tarixi	Spesifik xüsusiyyətləri
1. əmək potensialı	XX əsrin 70-ci illərinə qədər	Tədqiqatlar insan tələbatları və əmək sferasında maraqlar üzərinə yönəldilir
2. insan resursları	XX əsrin 70-80-ci illəri	insan ictimai sərvətin elementi hesab olunur, təkrar istehsalının zəruri şərtləri araşdırılır
3. insan potensialı	XX əsrin 80-ci illərinin ikinci yarısı və 90-cı illərin əvvəlləri	insan onun daxili qabiliyyətləri və xarici imkanlarının vəhdətində birincilərin reallaşdırılması üçün araşdırılır
4. insan kapitalı	XX əsrin 90-cı illəri və indiyə kimi	İnsan iqtisadi artım faktoru, investisiya qoyuluşları obyekti kimi nəzərdən keçirilir
5. Sosial kapital	XXI əsrin əvvəlləri	insan özünün sosial əlaqələri kontekstində nəzərdən keçirilir, fərdi və ictimai faydaların əldə olunması üçün başlıca faktor kimi təqdim olunur
6. intellektual kapital	XX əsrin əvvəlləri	insan özünün intellektual qabiliyyətlərinin reallaşdırılması üçün mövcud ictimai şərait prizmasından nəzərdən keçirilir.

Qeyd: müəllif tərəfindən tərtib edilib

Üçüncü istiqamətin ardıclıları insan amilinin təsirinə texnokratik mövqedən yanaşırlar, personal, kadrlar, işçilər və s. kimi anlayışlardan istifadə edirlər. Həmin istiqamətin ardıclıları insanları əsasən müəyyən vahid nəticəyə nail olmaq üçün bir istehsal sistemində (müəssisə və təşkilatlarda) birləşdirirlər.

Dördüncü istiqamətin ardıclıları problemə antroposentrist mövqedən yanaşaraq "insan amili", "insan resursları", "insan potensialı", "insan kapitalı", "intellektual kapital", "insan inkişafı" və s. kimi anlayışlar işlədirlər. (Cədvəl №1.)

Antroposentrist konsepsiyalarda mühüm məqam insanın sosial iqtisadi sistemlərin bütün səviyyələrində aparıcı roluna xüsusi diqqətin yetirilməsi, insanın bioloji, sosial, fərdi komponentlərinin kompleks və sistemli araşdırılması-

dır. Müasir iqtisadi fikirdə insan amili ilə bağlı nəzəri yanaşmalarda həddindən artıq müxtəlif fikirlər səslənməkdədir və həmin yanaşmaların özünün araşdırılması xüsusi tədqiqat tələb edir.

NƏTİCƏ

İqtisad elmində insan amili anlayışının iqtisadi kateqoriya kimi formalaşması prosesi uzun tarixi inkişaf yolu keçmişdir. Hələ antik və orta əsrlərdə insanın məcmu iqtisadi potensialı, onun konkret keyfiyyət xüsusiyyətləri diqqəti cəlb etməyə başlamışdır. Lakin qeyd etmək lazımdır ki, insanın iqtisadi mahiyyəti ilə əlaqədar ilk elmi-nəzəri mühakimələr öz əksini yeni dövrdə U.Petti, A.Smit, D.Rikardo, K.Marks, C.Mill, A.Marşall və b. əsərlərində tapmışdır, sonrakı dövrlərdə yeni məzmun və xüsusiyyətlər qazanaraq inkişaf etmişdir. Daha sonra XX əsrin 70-ci illərindən etibarən yeni "iqtisadi insan" konsepsiyası, yəni insan kapitalı nəzəriyyəsi formalaşmağa başladı. Bütünlükdə insan amili ilə bağlı nəzəri yanaşmalarda dörd mühüm istiqamət diqqəti cəlb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Гаранина О.Д., Человеческий фактор в контексте концепции человеческого потенциала// Научный Вестник МГТУ ГА, серия История, философия, социология, 2009, №142, (с.76-80)
2. Зомбарт В. Современный капитализм. М., 1992. Т. 3.
3. Ковалева О.О., Человеческий потенциал в контексте исследований Китайских ученых// с.Вестник ЧитГУ No 6 (85) 2012, с.95-99
4. Сен А. Развитие как свобода. М.: Новое изд-во, 2004. 432 с.
5. Сорокин П. Человек. Цивилизация. Общество. М.: Политиздат, 1992. 543 с.
6. В.Г.ФЕДОТОВА Человеческий капитал, персональная модернизация и проблема развития человека// Человеческий потенциал, 2007 — №1, с. 163-169
7. Becker G. S. Human Capital: A Theoretical and Empirical Analysis, with SpecialReference to Education. Chicago, 1964
8. Simmel G. The Philosophy of Money. Boston, 1978. P. 232, 497.
9. Shultz T. Human Capital // International Encyclopedia of the SocialSciences. N.Y., 1968. Vol. 6;
10. Shultz T. Investment in Human Capital. N.Y., 1971;
11. Schultz T. Investment in Human Capital. N.Y.; London, 1971

Мирзабекова Ж.С.

Человеческий фактор: общие тенденции в экономической в мысли

Резюме

Цель исследования-исследуется человеческий фактор и общие тенденции в экономической мысли

Результаты исследования- выявляется общие тенденции и направления в экономической литературе относительно трактовки содержания человеческого фактора

Ключевые слова: *человеческий фактор, человеческий капитал, экономическая теория, экономический мысль*.

Mirzabeyeva J. S.

The human factor: general trends in the economic in thought

Resume

The purpose of the research - is to study the human factor and general trends in economic thought

Methodology- systemic approach and comparative analysis

Findings – in economic thought general tendencies and trends in the human dimension has been defined.

Keywords: *human factor, human capital, economic theory, economic thought*

Daxil olub: 11. 04.2017

Rəy verib*:* AMEA İqtisadiyyat Institutunun "*İqtisadi siyasətin əsaslari"* şöbəsinin əməkdaşı i.e.d., prof.*Yüzbaşiyeva G. Z.*